# 18 yaşlı ölməz qəhrəman

## Şəhid Səyyad Ağahüseynli dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın və Qubadlının azadlığına görə medallara layiq görülüb

Səyyad Əliyar oğlu Ağahüseynli 44 günlük haqq savaşımız başlayanda ömrünün 18-ci ilini təzə yola salmışdı. Qaldı ki, Vətəninə ürəkdən bağlandığı üçün özünü ona fəda etməyi bacardı. Müharibə meydanında göstərdiyi misilsiz rəşadəti ilə tarixin səhifəsində şərəfli bir yer tutdu. Cəlilabad rayonunun Qarazəncir kəndində dünyaya göz açmış şəhid Səyyadın adı indi bütün Azərbaycan xalqının dilində qəhrəmanlıq simvolu kimi səslənir. Onun şərəfli həyat yolu gələcək nəsillər də örnək olacaqdır.

Canında, qanında Vətən məhəbbəti, xalq sevgisi olan Səyyad Ağahüseynlini yağı düşmənin Qarabağımıza ədalətsiz təcavüzü çox narahat edib. Elə orta təhsildən sonra bir başa ordu sıralarına getməkdə birinci məqsədi dığalardan layiqincə qisas almaq olub. Cəbhə bölgəsində etdiyi nümunəvi xidməti ilə qısa zaman kəsiyində zabitlərin, əsgərlərin gözündə ucalıb. Eləcə hərbi təlimlərdə verilən tapşırıqları uğurla yerinə yetirməyi bir daha göstərib ki, o, adına can dediyi Azərbaycanın hər qarış torpağı uğrunda canından-qanından keçməyə hazırdır.

Vətən müharibəsi başlanan andan vədinə sadiq qalan Azərbaycan Ordusunun



əsgəri olan Səyyad Ağahüseynli çəkinmədən, qorxmadan birincilər sırasında odun-alovun içinə girib. Qartal tək dığaların üstünə şığıyan igid döyüşçü çiyin-çiyinə vuruşan əsgərlərlə onların atəş nöqtəsini susdurub və çoxlu sayda canlı qüvvəsini məhv edib, hərbi texnikasını sıradan çıxardıb. Qazanılan ilk zəfər döyüş meydanında düşməni tam qırmaqdan ötrü Səyyadın qollarına yeni güc gətirib. O, hər dəfə savaş meydanına girəndə 30 il əsir düşən Vətən torpaqlarında dalğalanan üçrəngli bayraqların sayı da artıb. Beləcə saat-saat öz layiqli cavabını alan düşmən ağır məğlubiyyət qarşısında qalıb.

Sinəsini yanar od edib yağının bağrini çatladan qəhrəman Vətən sevdalısı Qubadlının azadlığı uğrunda gedən şiddətli müharibə meydanında şəxsi rəşadət göstərib. Adəti üzrə yenə də öndə olmaqla dığalara göz açmağa belə imkan verməyib. Düşmənə qan qusdurub ürəyincə qisas alan Səyyad Ağahüseynli 20 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalıb.

Doğulub boy-başa çatan Qarazəncir kəndində dəfn edilən şəhid Səyyad Ağahüseynli dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın və Qubadlının azadlığına görə medallara layiq görülüb.

Səyyad Ağahüseynli öz şərəfli ölümü ilə bir daha sübut etdi ki, torpaq onun yolunda şəhid olmağı bacaran oğulların çiyinlərində Vətən olur.

**Zəfər ORUCOĞLU**